HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
15 AVQUST 2019-CU İL/ №015 (95)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2

QANACAQSIZIN PORTRETİ

3

KİM NƏYİ QURBAN ETDİ?

5


GÜRCÜSTANDA SİYASİ BÖHRAN VƏ RUSİYA

6

TARİXLƏ LƏNGİMƏK

## XARİCİ İŞLƏR NAZİRLİYİ 2008-Cİ İL AVQUST MÜHARİBƏSİNİN 11-Cİ İLDÖNÜMÜ İLƏ BAĞLI BƏYANAT YAYIB



Gürcüstanın Xarici İşlər Nazirliyi (XİN) Rusiya ilə 2008-ci il avqust müharibəsinin 11-ci ildönümü ilə bağlı bəyanat yayıb.

XİN Rusiyanı 2008-ci ilin avqustun 12-də əldə olunmuş atəşkəs haqqında sazişin öhdəliklərini yerinə yetirməyə çağırıb.

Bəyanatda bildirilib ki, 11 il əvvəl hərbi təcavüz və beynəlxalq hüququn fundamental normalarına məhəl qoymamaqla suveren dövlətin sərhədlərinin zor gücünə dəyişdirilməsinə cəhd olub və bu da həm region, həm də ümumilikdə Avropanın təhlükəsizlik sistemi üçün ciddi təhdiddir.

Sənəddə vurğulanıb ki, Rusiya Gürcüstanın Abxaziya və Tsxinvali bölgələrinin faktiki zəbti istiqamətində addımlar atır: "Bu məqsədlə Rusiya dəmir tikanlı hasarlar çəkməkdə və süni maneələr yaratmaqda davam edir. Bu da yerli sakinlərin sərbəst hərəkət etmə və digər əsas hüquq və azadlıqlarını kobud şəkildə pozur. Buna görə də əhali ağır humanitar və sosial-iqtisadi vəziyyətdə yaşayır".

XİN Gürcüstan hökumətinin cari çağırışlara cavab olaraq Rusiya-Gürcüstan münaqişəsinin sülh yolu ilə həlli siyasətini ardıcıl olaraq davam etdirdiyini qeyd edib.

Bəyanatda Gürcüstan tərəfinin beynəlxalq ictimaiyyətin ölkənin suverenliyi və ərazi bütövlüyünə dəyişməz dəstəyini və Rusiya-Gürcüstan münaqişəsinin sülh yolu ilə həll olunması üçün töhfəsini yüksək qiymətləndirdiyi bildirilib.

## MAMUKA BAXTADZE: İŞĞALLA MÜBARİZƏDƏ SÜLH VƏ İNKİŞAFA ALTERNATİV YOXDUR



"Gürcüstanın işğalı siyasi baxışlarda fərqə baxmayaraq, bizim hər birimizi birləşdirir." Bunu baş nazir Mamuka Baxtadze jurnalistlərə bildirib.

Onun sözlərinə görə, işğal ümummilli ağrı və çağırışdır. M.Baxtadze qeyd edib ki, işğalla mübarizədə sülh və inkişafa alternativ yoxdur: "Bu yol bizi Gürcüstanın işğaldan tam azad olunması ilə bağlı ali məqsədimizə mütləq çatdıracaq".

Qeyd edək ki, baş nazir prezident Salome Zurabişvili və hökumət üzvləri ilə birgə Muxatqverdi qardaşlıq qəbirstanlığında 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsində həlak olanların xatirəsini yad edib.

2008-ci ilin avqustun 8-də başlayan Rusiya-Gürcüstan müharibəsi 5 gün davam edib. Müharibədə 170 hərbçi, Daxili İşlər Nazirliyinin 14 əməkdaşı, 224 dinc sakin həlak olub, 1045 hərbçi daxil olmaqla 2232 nəfər isə yaralanıb. Beşgünlük müharibə Rusiyanın Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrinin işğalı ilə nəticələnib və avqustun 26-da Rusiya onların müstəqilliklərini tanıyıb.

## BAŞ NAZİR MÜSƏLMANLARI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Baş nazir Mamuka Baxtadze Qurban bayramı ilə əlaqədar Tbilisi Cümə məscidinə baş çəkərək müsəlmanları müqəddəs Qurban bayramı münasibətilə təbrik edib.

M.Baxtadze ölkənin bütün müsəlman vətəndaşlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıb.

O, Qurban bayramının ümid, qarşılıqlı yardım və sevgi günü olduğunu qeyd edib.

"Gürcüstanın gücü onun rəngarəngliyidir. Əsrlər boyu əcdadlarımız bir yerdə Gürcüstan dövlətini qurublar. Hər kəs ölkədə dostluq və qardaşlığı qoruyub saxlamalı və gələcək nəsillərə ötürməlidir", - deyə baş nazir bildirib.



Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi Hacı Ramin İgidov, BGMİ-nin müftisi Hacı Yasin Əliyev, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və din xadimləri də çıxış edərək Qurban bayramı münasibətilə müsəlman icmasını təbrik ediblər.

## NATİA TURNAVA: LARİNİN MƏZƏNNƏSİ DAHA DA MÖHKƏMLƏNƏCƏK

"İqtisadi inkişaf deməyə əsas verir ki, larinin məzənnəsi daha da möhkəmlənəcək". Bu barədə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Gürcüstan iqtisadiyyatı dayanıqlı olduğundan ölkə hər hansı bir ciddi mənfi dəyişikliklə üzləşmir: "Bu günlərdə larinin məzənnəsinin güclənməsini müşahidə edirik. Bu, bizim proqnozu təsdiq edir".



N.Turnava milli valyutanın möhkəmlənməsi üçün Gürcüstan Milli Bankının intervensiyasına ehtiyacın olmadığını vurğulayıb.

Qeyd edək ki, ölkədə son günlər larinin dollar və avro qarşısında möhkəmlənməsi tendensiyası müşahidə olunmaqdadır.



# QANACAQSIZIN PORTRETİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Qanacaq supermarketdə satılmır ki, alasan. Qanacağın bir ucu atanın belinə, bir ucu ananın bətninə bağlı olur, bir ucu da məktəb və böyüdüyün mühitə, amma ki, valideynləri qanacaqlı olub da övladları qanacaqsız olanlar və əksi də var, həmçinin eyni məktəb və eyni mühitdən qanacaqlı və qanacaqsızların çıxdığı da. Ən pisi də valideynli-övladlı hər iki zümrənin də qanacaqsız olmasıdır. Yəni beləlirini heç bir məktəb, heç bir mühit, şəhər, ölkə, qitə, cahan (metafizik mənada) tərbiyə edib qanacaq yoluna döndərə bilməz. Yəni belələri, şair demiş, atalarından, analarından süzülərək qanacaqsız doğulurlar, necə deyərlər, anadangəlmə, genetik, qozbeli qəbir düzəldər misalı.

Qanacaqsızın milliyəti, dini, siyasi baxışı yoxdur. Bu sadaladıqlarım, ümumiyyətlə, qanacaqsızda olmur, heç maraqlı da deyil. Olsa-olsa qanacaqsızları birləşdirən ortaq maraq və əməllər olur ki, bu da hərəsində bir cürdür. Qanacaqsız hər şeyə biganə yanaşır, qanacaqsız üçün heç bir dəyər yoxdur. Məsələn, şəhərə yeni plastik zibil qabları qoyulur, qanacaqsız siqareti söndürmədən zibil qabına atır. Nəticəsi də bəllidir. İstirahət parkına yeni işıq lampaları quraşdırılır, qanacaqsız əlinə keçəni lampaya tolazlayıb sındırır (bu da qanacaqsızın qaranlığın tərəfində olmasının göstəricisidir); yeni oturacaqlar quraşdırılır, qanacaqsız oturmaq əvəzinə oturacağın üstünə minib domuşur; zibili zibil qablarından başqa əlinin çatdığı hər yerə atır; yaşıllıqları, dekorativ bitkiləri mal-qaradan əvvəl qanacaqsız tapdalayıb məhv edir. Qanacaqsız üçün hər yer ictimai tualetdir, ürəyi istəyən yerə təbii ehtiyacını ödəyir. Ən zırrama qanacaqsız isə avtomobili olan qanacaqsızdır. Maşınlı qanacaqsızlar avtomobilini insanların hərəkət etdiyi səkilərdə saxlayır, piyada keçidlərinin üzərində saxlayır, gecə saatlarına qədər yüksək səslə musiqi dinləyir, salamı yeri gəldi-gəlmədi siqnalla verir və sair, və ilaxır.

Qanacaqsıza istənilən yaş kateqoriyasında rast gəlmək olar. Məsələn, ictimai yerlərdə söyüşlə bağıra-bağıra danışan qoca qanacaqsız da görmək olar, cavan qanacaqsız da. Belələri bazarda, mağazada, aptekdə, bankda söyüşlə bağıra-bağıra danışır və sıra gözləmirlər. Qanacaqsız üçün heç bir qayda-qanun yoxdur. Qanacaqsız banklarda sıra nömrəsi götürüb növbədə durmağı özünə sığışdırmır, ümumiyyətlə, hara olur olsun, növbədə durmağı özünə sığışdırmır. Yaşlı qanacaqsızları uşaqlar üçün quraşdırılmış attraksionlarda oynayan görərsiniz (sınmış yelləncəklər həmin qanacaqsızların çəkisinə tab gətirməyib), gənc qanacaqsızları isə qocalarla çayxanalarda söyüş söyə-söyə domino çırpan görərsiniz. Qanacaqsız nə böyük qanar, nə kiçik. Qanacaqsız qadağan işarələrinə heç bir əhəmiyyət vermədən ürəyi istəyən yerdə siqaret çəkər, içki içər, avtomobil saxlayar, zibil tökər, təkər yandırar, mal-qara otarar, hasar çəkər, obyekt tikər və sair qanacaqsızlıqlar edər.

Qanacaqsızın cinsi də olmur, yəni qanacaqsız kişi də olur, qadın da, lap belə hermafrodit də. Qanacaqsız zalda, teatrda, kinoteatrda sakit oturub tamaşaya, filmə, konsertə baxa bilmir, mütləq yüksək səslə replikalar atmalı, tum çırtdamalı, saqqız dombaltmalı, fit çalmalı, nümayiş bitməmiş yarımçıq durub “bu nədi, ə” deyib zalı tərk etməlidir. Ümumiyyətlə, mədəniyyət qanacaqsız üçün məzə yeridir, eqosunu, sırtıqlığını, bambılılığını göstərmək yeridir.

Qanacaqsızlıq edib qızıldan dəyərli vaxtınızı alaraq burada sizə uzun-uzadı moizə oxumaq istəmirəm. Onsuz da qanacaqsız insanı siz məndən də yaxşı tanıyırsınız. Niyyətim qanacaqsızları qanacaqlı etmək də deyil (onsuz da qanacaqsız qəzet oxumur, qəzet qanacaqsıza olsa-olsa yalnız nəsə bükməyə, meyvə-tərəvəz yeşiyinin altına, üstünə sərməyə, qatıq bankalarının ağzını bağlamağa və s. üçün lazım olar). Sadəcə olaraq naturadan qanacaqsızın portretini çəkmək istəyirdim, amma etüd alındı.

## SALOME ZURABİŞVİLİ: NATO-YA İNTEQRASİYA BÖLGƏNİN SABİTLİYİNİN GÜCLƏNDİRİLMƏSİNƏ VƏ TƏHLÜKƏSİZLİYƏ DOĞRU GEDƏN YOLDUR



NATO-ya inteqrasiya, alyansa üzvlük təkcə Gürcüstan üçün vacib deyil. Bu yol qlobal əmin-amanlıq, bölgənin sabitliyinin gücləndirilməsinə və təhlükəsizliyə doğru gedən yoldur. Bu sözləri prezident Salome Zurabişvili Gürcüstanda keçirilən çoxmillətli “Agile Spirit 2019” (Çevik ruh) hərbi təlimlərinin bağlanış mərasimindəki çıxışı zamanı söyləyib.

Onun sözlərinə görə, Gürcüstanın NATO-ya inteqrasiya istiqamətində atdığı siyasi və hərbi addımlar, həyata keçirdiyi islahatlar onun daha həqiqi və davamlı tərəfdaş olduğunu göstərir. “Hərbi müdafiədə biz NATO-nun standartlarına riayət edirik. Bizim əsgərlərimiz Gürcüstan daxilində, eləcə də xaricdə beynəlxalq sülhün qorunması üçün mübarizə apararaq müttəfiqlərimizin etibarını qazanıblar”, - deyə prezident əlavə edib.

Qeyd edək ki, sözügedən təlimlərə NATO dövlətləri və tərəfdaş ölkələrdən üç min hərbçi qatılıb. Hərbi təlimlər Gürcüstanın üç hərbi bazasında keçirilib.

## MAMUKA BAXTADZE: “GÜRCÜSTANIN TURİZM SEKTORU 60 MİLYON DOLLARA YAXIN ZƏRƏR GÖRÜB”



“İyul ayının məlumatına əsasən, Gürcüstanın turizm sektoru 60 milyon dollara yaxın zərər görüb”. Bu barədə baş nazir Mamuka Baxtadze jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, iyun ayında Acarıstanda turizm sahəsində çox yaxşı tendensiya müşahidə olunub: “Ötən ilin analoji dövrü ilə müqayisədə muxtar respublikada turizm 40% artıb”.

M.Baxtadze qeyd edib ki, bu gün turizm sahəsində kiçik və orta biznesi dəstəkləmək lazımdır: “Biz kiçik və orta biznesin üzləşdiyi problemlərin həlli məqsədilə iki proqram hazırlamışıq. Əminəm ki, biz turizm sahəsində mövcud olan pozitiv dinamikanı geri qaytaracağıq”.

Qeyd edək ki, Gürcüstanın turizm sahəsində qarşılaşdığı maliyyə itkiləri Rusiyanın iyulun 8-dən etibarən bu ölkə ilə birbaşa aviadaşımalara qadağa qoyması ilə bağlıdır.

## SİYASİ PARTİYALARIN SEÇKİLƏRDƏ İŞTİRAKI ÜÇÜN TƏLƏB OLUNAN İMZALARIN SAYI BEŞ DƏFƏ AZALDILA BİLƏR



Gürcüstanda siyasi partiyaların seçkilərdə iştirakı üçün tələb olunan imzaların sayı 5 dəfə azaldıla bilər. Bu, Gürcüstanın Seçki Məcəlləsinə dəyişikliklərdə nəzərdə tutulub.

Qanun layihəsinə əsasən, siyasi partiya seçkilərdə iştirak hüququ əldə etmək üçün tərəfdarlarının 5 min imzasını toplamalı olacaq. İmzaların etibarlığının yoxlanılması prosedurunun da sadələşdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, qüvvədə olan seçki qanunvericiliyinə əsasən, seçkilərdə iştirak etmək istəyən siyasi partiya ölkənin Mərkəzi Seçki Komissiyasına 25 min imza təqdim etməlidir. Gürcüstan parlamentində və ya yerli idarəetmə orqanında nümayəndəsi olan partiyadan isə 1000 imza tələb olunur.

## “WİZZAİR” GÜRCÜSTANDAN 12 YENİ İSTİQAMƏT ÜZRƏ UÇUŞLARI TƏXİRƏ SALIB

Macarıstanın aşağı büdcəli aviaşirkəti “Wizzair” Gürcüstanın Kutaisi şəhərindən 12 yeni istiqamət üzrə uçuşları təxirə salıb. Bu barədə şirkət məlumat yayıb.

Yeni istiqamətlər üzrə uçuşların təxirə salınmasının səbəbi təyyarələrin tədarükünün gecikdirilməsidir.

“Wizzair”in Kutaisidəki bazasının 4-cü və 5-ci təyyarələri hava limanına 2020-ci ildə müvafiq olaraq iyul və dekabr aylarında xidmət göstərməyə başlayacaq.

Avişirkət Kutaisi hava limanına iki Airbus A320 təyyarəsinin əlavə olunacağı və 12 yeni istiqamət – Frankfurt, Hamburq, İraklion, Karlsrue/Baden-Baden, Neapol, Nitsa, Nürnberq, Piza, Poznan, Stokholm, Turku və Venesiya şəhərlərinə uçuşlar elan etmişdi.

“Wizzair” bu istiqamətlər üzrə biletlər əldə edən sərnişinlərdən üzr istəyib və onlara biletin dəyərinin qaytarılması və ya dəyişdirilməsi üçün bir neçə variant təklif edib.

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ KƏND TƏSƏRRÜFATI NAZİRİ TÜRKİYƏDƏ SƏFƏRDƏ OLUB

Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitaşvili Türkiyə Cümhuriyyətinə səfər edib. Bu haqda məlumatı Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi yayımlayıb.



Məlumata görə, səfər çərçivəsində Türkiyə, Gürcüstan və Azərbaycan arasında strateji əməkdaşlığın üçtərəfli bəyannaməsi imzalanıb. Bəyannaməyə əsasən, fındıq istehsalı istiqamətində üç ölkə daha fəal əməkdaşlıq edəcək.

Fındıq Gürcüstan, Türkiyə və Azərbaycan üçün ixrac ediləcək vacib məhsuldur. Üçtərəfli əməkdaşlıq formatının məqsədi istehsal və keyfiyyətin yüksəldilməsi, məhsuldarlığın artırılması üçün elmi potensialdan maksimum istifadə etmək, texniki və texnoloji əməkdaşlığın təmin edilməsidir.

Tərəflər qeyd olunan istiqamətlərdə əməkdaşlıq üçün razılaşıblar. Əməkdaşlıq sahənin inkişafına və istehsalın artırılmasına istiqamətlənib.

## AZƏRBAYCAN-GÜRCÜSTAN SƏRHƏDİNDƏN TÜRKİYƏYƏ QƏDƏR 460 KİLOMETR MƏSAFƏ 30 KİLOMETR QISALDILACAQ

"Şərq-Qərb avtomagistralının tikintisi başa çatandan sonra "Qırmızı körpü" məntəqəsindən "Sarpi"ya qədər yolda gedilən vaxt iki dəfə azalacaq". Bu barədə Gürcüstanın regional inkişaf və infrastruktur nazirinin müavini, Avtomobil Yolları Departamentinin rəhbəri İrakli Karseladze bildirib.



Onun sözlərinə görə, Şərq-Qərb avtomagistralı Gürcüstan üçün çox önəmli layihədir.

"Bu yol Azərbaycanla sərhəddə yerləşən "Qırmızı körpü" məntəqəsindən başlayır və Türkiyə ilə sərhəddəki "Sarpi" məntəqəsinə qədər davam edir və 430 kilometr təşkil edir. Yolun 200 kilometri artıq inşa olunub. Hazırkı 460 kilometrlik məsafə 30 kilometr qısalacaq. Əgər bu gün bu yolun qət olunmasına 8 saat sərf olunursa, gələcəkdə tələb olunan vaxt iki dəfə azalaraq 4-4,5 saat təşkil edəcək. Yolda hərəkət tam təhlükəsiz olacaq", - deyə İ.Karseladze bildirib.

Qeyd edək ki, Şərq-Qərb avtomagistralı layihəsinin 2021-2022-ci illərdə başa çatdırılması nəzərdə tutulub.

## BÖLGƏLƏRDƏ YAŞAYAN İMKANSIZLARA QURBAN ƏTİ PAYLANIB

Qurban bayramı İslam dininin iki əsas bayramlarından biridir. Bu bayramda imkanı olan müsəlmanlara qurban kəsmək vacibdir. Kəsilən qurbanların ətlərinin bir hissəsinin ehtiyacı olan və imkansız ailələrə paylanması İslam dininin ən savablı saydığı əməllərdəndir. Çünki İslam dini ictimai bir dindir və insanların yardımlaşmasına və bir-birlərinə dəstək olmalarına böyük dərəcədə əhəmiyyət verir.




Elə bu səbəblə də 12 avqust tarixində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı və Aziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə böyük və kiçik baş heyvanlar kəsilərək Gürcüstanın müxtəlif bölgələrində yaşayan bir çox kasıb və ehtiyac sahibi olan ailələrə ət yardımı edilmişdir. Həmçinin Rustavi şəhərində yaşayan 100 imkansız və ehtiyac sahibi olan ailəyə qurdan əti yardımı verilib.

## ASİYA İNKİŞAF BANKI GÜRCÜSTANA 415 MİLYON DOLLAR KREDİTİN AYRILMASINI TƏSDİQ EDİB

Asiya İnkişaf Bankı (AİB) Gürcüstana yeni avtomobil yolunun inşasına 415 milyon ABŞ dolları həcmində kredit ayrılmasını təsdiq edib. Bu barədə AİB məlumat yayıb.

Vəsait Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsinə yönəlmiş Kveşeti-Kobi magistral avtomobil yolu layihəsinin maliyyələşdirilməsinə sərf olunacaq.

AİB-dən bildirilib ki, layihə Gürcüstan üçün genişmiqyaslı planın tərkib hissəsi olmaqla yanaşı ölkənin nəqliyyat şəbəkəsinin inkişaf etdirilməsi, bölgədə ticarət və turizm habına çevrilməsinə töhfə verəcək: "Bu dəhliz Gürcüstan, Ermənistan və regional ticarət tərəfdaşları üçün vacib tranzit yoldur. Bu yol Şərq-Qərb avtomagistralı ilə kəsişməklə, həmçinin Mərkəzi Asiyanı Avropa və Şərqi Asiya ilə birləşdirən ən qısa yoldur".

Uzunluğu 23 kilometr olan Kveşeti-Kobi avtomobil yolu hissəsinin inşasına 2020-ci ildə başlanılması planlaşdırılıb.

## KİM NƏYİ QURBAN ETDİ?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bir Qurban bayramını da yola salaraq onun gətirdiklərini və götürdüklərini nəzərimizdən keçirdik. Hər kəs bu bayramı fərqli olaraq anladı və anlatdı.

İslam dininin iki müqəddəs bayramından biri olan Qurban bayramı Allahın əmr etdiyi şəkildə bayram namazı qılındıqdan sonra müəyyən edilmiş heyvanların Allah yolunda kəsilərək qurban edilməsiylə icra olunur. Qurban elə Adəm (ə.s) zamanından bəri gələn bir ibadətdir. Hər dinin özünə xas qurban adəti vardır ki, İslam dinində də kiçik baş heyvandan, böyük baş heyvandan və dəvədən qurban kəsilir.

Bu qurban əslində insanların imtahanıdır. Çünki insan sevdiyinə ən sevdiyi şeylərdən fəda edər. Qurban bayramında da malının ən gözəlini və ya ən gözəl malı alaraq qurban edənlər qazanclı çıxarlar. Buna misal olaraq həzrət İbrahimi misal göstərsək məncə kifayət edər. İllərlə övlad sahibi olmayan İbrahim peyğəmbər sonralar sahib olduğu övladı İsmaili etiraz etmədən Allah yolunda qurban etməkdən zərrəcə çəkinmir. Sonda Allah onun imtahandan layiqincə çıxdığını deyərək bir qoç göndərərək onu qurban etməsini istəyir. Elə bunun nəticəsində də bugünkü qurban şəkli meydana gəlir. Bu imtahan bir növ qulun Allaha olan sevgisinin göstəricisidir. İbrahim əleyhissalamın ən sevdiyini ən sevgiliyə qurban etməsi bizim üçün də bir nümunə olmalıdır. Axı "mənim" dediyimiz nə varsa əslində Allahın bizə bəxş etdiyidir. Elə bu səbəblə də Allah bizi imtahan edir ki, görüm qullarım mənim verdiyimdən mənə geri nəsə qaytarırlarmı? Əslində bu qurbanlar da bizim xeyrimizə nəticələnir. Həm ibadət etmiş oluruq, həm də imkansız ailələrə dəstək vermiş oluruq.

Yuxarıda da vurğuladığım kimi, qurban bir imtahandır. Hər bir peyğəmbərin zamanında imtahanları fərqli olmuşdur – İbrahim (ə.s) oğlu İsmaillə və tonqalla, Nuh (ə.s) tufanla, Yusif (ə.s) zindanla və s.

Müsəlmanlar Allah yolunda qurban kəsərkən buna qarşı çıxanlar da az olmadı. Restoranlarda bir şiş kabab üçün yüzlərlə lari xərcləyənlər müsəlmanlar tərəfindən kəsilib kasıb və imkansız ailələrə verilən ətləri qətliam olaraq qiymətləndirdilər. Bir onlardan soruşmaq lazımdır ki, bəs toyuqlar canlı olaraq divarlara çırpılaraq öldürülərkən, hind quşları doğranıb qazanlara doldurularkən qətliam olmurmu? Bəzi İslam ölkələrində törədilən insan qətliamlarını siz nə adlandırırsınız?

Bu qurban məsələsini sizin anlamağınız çətindir. Çünki bu bir qəlb məsələsidir. Bir inanc məsələsidir ki, sizin inancınız maddiyat olduğu müddətcə bunu anlamayacaqsınız. Çünki sizi cibinizdən başqa heç nə və heç kim düşündürmür.

Bu qurban həm də bir sevgi nişanəsidir. Hər kəs sevdiyi qədər sevilir. Allah yolunda verdiyimiz qurbanlar da belədir. Sevdiyimizi qurban edərək sevir və sevilirik. Odur ki, gəlin bir az düşünək, sevdiyimizimi qurban etdik, yoxsa sevgimizimi? Düşünək görək KİM NƏYİ QURBAN ETDİ?

## YAYDA MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARA QEYDİYYAT OLMAYANLAR NOYABRDA KEÇİRİLƏCƏK İMTAHANLARA QATILA BİLƏCƏKLƏR



Müəllimlərin Peşəkar İnkişafı Mərkəzinin məlumatına əsasən, yayda qeydiyyatdan keçməmiş müəllimlər noyabrda müəllimlik kompetensiyasının təsdiqlənməsi imtahanına qatıla biləcəklər.

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin noyabrda yalnız yayda imtahanı uğursuz verən aplikantlara yenidən imtahan vermək şansının verilməsi qərarına baxmayaraq qeydiyyat elan olunana qədər müəllimlər və müəllim istəyi olanlar yeniliklər gözləsinlər.

Noyabrda planlaşdırılan müəllimlərin kompetensiyasının təsdiqlənməsi imtahanında yayda qeydiyyatdan keçməmiş müəllimlərin iştirak edə biləcəyi ilə bağlı Etaloni.ge-nin sualına Müəllimlər Evindən cavab veriblər: "Güman ki, yayda imtahanlara qatılmayan müəllimlər də noyabrda imtahanlarda iştirak edə biləcəklər, qeydiyyat elan olunanda bu haqda daha dəqiq məlumatımız olacaq".

## TƏHSİL, ELM, MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRİNİN YENİ MÜAVİNİ TƏYİN EDİLİB



Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini vəzifəsinə Keyfiyyətin İnkişafı üzrə Milli Mərkəzin rəhbəri Giorgi Vaşakidze təyin edilib. O, yeni vəzifəsində Natia Zedqinidze-Cişkarianini əvəz edib və bu haqda nazirlik bəyanat verməyib.

Təhsil Nazirliyindən EDU.ARİS.GE-yə bildiriblər ki, N.Zedqinidze vəzifəsini öz ərizəsi əsasında tərk edib və başqa vəzifəyə keçib.

Bundan əlavə, EDU.ARİS.GE nazir M.Batiaşvilinin sərəncamını əldə edib və orada nazir və onun yeni müavinlərinin funksiyaları bölünüb. Sənədə əsasən, məlum olur ki, nazirin yeni müavini Giorgi Vaşakidzeyə həmçinin Peşə Təhsilinin İnkişafı Departamentini idarə etmək funksiyası da verilib. Qeyd edilməlidir ki, indiyə kimi departamentə nazir müavini İrina Abuladze rəhbərlik edib.

Nəzərə alınmalıdır ki, nazirliyin bu istiqamətdə yarımçıq qalan işləri, xüsusilə də peşə kollecərinin direktorlarının müsabiqə yolu ilə təyin edilməsi müddəti tamamilə pozulub. İrina Abuladzenin komissiyaya rəhbərlik etdiyi müsabiqə hələ 6 aprel tarixindən natamam hesab olunur, çünki qanuna əsasən 4 aydan çox vaxt keçib. Həmin müsabiqənin üzvlərindən biri yeni nazir müavini Giorgi Vaşakidze idi.

Giorgi Vaşakidze 2018-ci ildən Keyfiyyətin İnkişafı üzrə Milli Mərkəzə rəhbərlik edib. Onun beynəlxalq, özəl və dövlət təşkilatlarında 10 il iş təcrübəsi var. Müxtəlif ali təhsil müəssisələrində akademik çalışmalar üzrə əhəmiyyətli təcrübəyə malikdir. BMT-nin inkişaf proqramlarında ekspert kimi çalışıb. Rustaveli Milli Elm Fondunun şura üzvü olub. G.Vaşakidze bir çox monoqrafiya, tədqiqat və məqalənin müəllifidir. Hamburq Universitetində hüquq üzrə magistr və doktor dərəcələri alıb.

## YENİ DƏRS İLİNDƏN VII SİNİFLƏRDƏ FİZİKA, BİOLOGİYA, KİMYA BİRLƏŞDİRİLMİŞ FORMADA TƏDRİS OLUNMAYACAQ



Yeni dərs ilindən etibarən Gürcüstan məktəblərinin VII siniflərində fizika, biologiya, kimya birləşdirilmiş formada tədris olunmayacaq. Bu barədə milli tədris planı və resurslarının qiymətləndirilməsi idarəsinin rəhbəri Mariam Çikobava bildirib.

Onun sözlərinə görə, tədris proqramları tam yenilənib və 2019-2020-ci dərs ilində VII sinif şagirdləri yeni dərsliklər üzrə təhsil alacaqlar.

"Əgər bu günə qədər VII sinif şagirdlərinə təbiət elmləri – fizika, kimya, biologiya kombinə olunmuş formada tədris olunurdusa, indi artıq fənlər bölünüb. Yeni dərs ilindən başlayaraq biologiya və fizika VII sinifdə, kimya isə VIII sinifdə keçiriləcək", - deyə M.Çikobava bildirib.

O qeyd edib ki, yeni dərs ilindən VII sinif şagirdlərinə yeni mütləq "Vətəndaşlıq" fənni tədris olunacaq. Fənn üzrə şagirdlərə 5 mövzu – cəmiyyət, məktəb mühiti, sağlam həyat tərzi, ətraf mühit və mədəni irs, cəmiyyətdə iqtisadi münasibətlər öyrədiləcək.

## 2020-Cİ İLDƏN VAHİD MİLLİ İMTAHANLAR YENİ MODEL ÜZRƏ KEÇİRİLƏCƏK



Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, 2020-ci ildən başlayaraq vahid milli imtahanlar yeni model üzrə keçiriləcək.

Yeni modelə əsasən, imtahanların sayı 4-dən 3-ə qədər azaldılıb. Bununla yanaşı abituriyentlərin tənqidi düşüncə, məlumatın adekvat emalı, məntiqi və arqumentli düşüncə kimi vacib bilikləri də yoxlanılacaq.

Gələn ildən abituriyentlər üçün mütləq fənn – gürcü dili və ədəbiyyatı, xarici dil olacaq. Üçüncü fənn isə abituriyentlərin seçdikləri texniki və ya humanitar sahədən asılı olaraq dəyişəcək.

Gürcüstanın ali məktəblərinin dördüncü imtahan təyin etmək hüququ da olacaq.

Azərbaycanlı və erməni abituriyentlərin ali məktəblərə qəbul qaydalarına isə heç bir dəyişiklik edilməyəcək və imtahanlar köhnə formata uyğun keçiriləcək.

Qeyd edək ki, qüvvədə olan qaydalara əsasən, tələbə adını qazanmaq üçün abituriyent 4 imtahan verməlidir. Gürcü dili və ədəbiyyatı, ümumi biliklər və xarici dil üzrə imtahanlar mütləqdir. Dördüncü imtahan isə seçimə görə ədəbiyyat, riyaziyyat, tarix, coğrafiya, kimya, fizika, biologiya, təsviri və tətbiqi incəsənət üzrə olur.

## AZƏRBAYCAN DİLLİ MƏKTƏBLƏR ÜÇÜN DƏRSLİKLƏR YENİLƏNİB



"Qeyri-gürcü dilli məktəblərin I-VI sinifləri üçün dərsliklər Azərbaycan, rus və erməni dillərinə tərcümə olunub". Bu barədə "Interpressnews" agentliyinə milli tədris planı və resurslarının qiymətləndirilməsi idarəsinin rəhbəri Mariam Çikobava bildirib.

O deyib ki, yeni dərs ilindən qeyri-gürcü dilli məktəblərin ibtidai və aşağı sinif şagirdləri yenilənmiş dərsliklərlə təmin olunacaqlar.

M.Çikobava mərhələli şəkildə bütün köhnə dərsliklərin yeniləri ilə əvəz olunacağını qeyd edib.

## ABİTURİYENTLƏR SƏHİYYƏ PROQRAMLARI ÜÇÜN HANSI FƏNLƏRDƏN İMTAHAN VERMƏLİ OLACAQLAR?!



Səhiyyə tədris proqramları üçün dörd imtahan məcburi olacaq:

1. Gürcü dili və ədəbiyyatı;
2. Xarici dil;
3. Biologiya;
4. Riyaziyyat/Kimya/Fizika (abituriyent minimum birini seçir). Dördüncü fənn üçün kvota yerləri hər fənn üçün 30%-dən az olmayaraq ayrılacaq.

Vahid milli imtahanların yeni modeli ilə bağlı təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili və qiymətləndirmə və milli imtahanlar mərkəzinin rəhbəri Sopo Qorqodze birgə mətbuat konfransı keçiriblər.

Qeyd edilməlidir ki, səhiyyə tədris proqramlarına 4 vacib imtahan bu ixtisaslar üzrə müəyyən edilib: stomatologiya, tibb, tibb bacısı, mamalıq, fiziki tibb və reabilitasiya, peşə terapiyası, farmasiya və ictimai səhiyyə.

***Səhifəni hazırladı: Aynurə Əliyeva***

# GÜRCÜSTANDA SİYASİ BÖHRAN VƏ RUSİYA




İyunun 20-də Parlamentlərarası Pravoslav Assambleyasının Tiflisdə keçirilən 26-cı Baş Assambleyası zamanı qurumun prezidenti, Rusiya Kommunist Partiyasının üzvü və Dövlət Dumasının deputatı Sergey Qavrilovun parlament sədrinin kürsüsündə əyləşərək iclasa sədrlik etməsi öncə parlamentin müxalifətdən olan deputatlarının, daha sonra isə geniş kütlənin etirazlarına səbəb oldu. Etirazların səhəri günü Gürcüstan parlamentinin spikeri İrakli Kobaxidze istefa vermək məcburiyyətində qaldı. İ.Kobaxidzenin istefası "Gürcü Arzusu"nu yaranmış çətin durumdan xilas etmədi. Etirazçılar parlamentin spikeri ilə bərabər daxili işlər naziri Giorgi Qaxarianın da istefasını və həmçinin, növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbini irəli sürdülər.

Etiraz dalğasının böyüyərək Gürcüstanın digər iri şəhərlərinə yayılması hakim partiyanı növbəti il keçirilməsi nəzərdə tutulan parlament seçkiləri ilə bağlı bir sıra mühüm güzəştlərə getməyə məcbur etdi. Bunlardan ən önəmlisi yeni konstitusiyaya əsasən, proporsional seçki sisteminə tam keçidi hələ 2024-cü ildə nəzərdə tutan dəyişikliyi, hakim partiyanın artıq 2020-ci il parlament seçkilərində tətbiq etməyə razılıq verməsi idi. Bu da müxalifət partiyalarının parlament seçkilərində əlavə yer qazanmaq üçün şansını artırır. Qeyd etmək lazımdır ki, qarışıq sistemin tətbiqi "Gürcü Arzusu"na son parlament seçkilərində yerlərin 75%-dən çoxunu qazanmağa imkan vermişdi.

2012-ci ildən bəri hakimiyyətdə olan "Gürcü Arzusu" öz hakimiyyətinin 7 illik dövründə bir çox səhvlərə yol verdi və bunun nəticəsi olaraq hər növbəti seçkilərdə hakim partiya daha az səslə qalib olurdu. Əgər bundan öncə "Gürcü Arzusu" partiyası 2020-ci ildə keçiriləcək seçkilərə ciddi hazırlıqlar görərək hakimiyyətdə olduğu müddət ərzində yol verdiyi səhvləri qismən də olsa düzəltməyə çalışırdısa və bununla da özünə olan etimadı yenidən geri qaytarmaq üçün az da olsa şansı var idisə, 20 iyun hadisələrindən sonra şansının daha da azaldığını müşahidə etmək olar. Bununla belə, hakim partiyanın əlində ciddi maliyyə, inzibati və digər resurslar qalmaqda davam edir ki, bu da 2020-ci ildə keçirilməsi nəzərdə tutulan parlament seçkilərinin gedişatına təsir etmək üçün kifayət qədər həlledici rol oynaya bilər.

Qarşıdan gələn parlament seçkilərinə ciddi hazırlıqlar görən müxalifət partiyaları da, təbii ki, bu illər ərzində iqtidar partiyasının yol verdiyi səhvlərdən maksimum yararlanmağa çalışır və bununla da cəmiyyətdə öz mövqelərini gücləndirməyə çalışırlar. 20 iyun etirazları da məhz bu sıradan olan hadisələrdən oldu. Qeyd etmək lazımdır ki, "Gürcü Arzusu"nun əsas rəqibi hesab olunan "Vahid Milli Hərəkat" partiyası müxalifətdə olduğu son illər ərzində iki dəfə ciddi daxili parçalanma yaşamış və nəticədə partiyanın mövqeləri xeyli zəifləmişdir. Hadisələrin bu cür inkişafı isə "Vahid Milli Hərəkat" partiyasına cəmiyyətdə öz mövqelərini yenidən gücləndirmək üçün münbit şərait yaratmış oldu. Bu baxımdan, hər iki partiya arasında gedən siyasi mübarizədə tərəflərin istənilən üsuldan və şəraitdən yararlanmağa çalışması gələcək parlament seçkilərinin gedişatına təsir edən amillərdəndir.

## RUSİYA AMİLİ

İyunun 20-də parlament önünə toplaşan narazı kütlə hakimiyyət əleyhinə şüarlarla yanaşı, Rusiya əleyhinə də müxtəlif şüarlar səsləndirdi. 2008-ci il müharibəsindən sonra iki ölkə arasında pisləşən münasibətlərin fonunda Dövlət Dumasının rəsmi nümayəndəsinin Gürcüstanın ali qanunverici orqanında spiker kürsüsündə əyləşərək çıxış etməsini paytaxt sakinləri dövlətin suverenliyinə hörmətsizlik kimi qəbul etdilər ki, bu da kütləvi etirazlarla qarşılandı.

Paytaxt Tiflisdə baş verənləri Kreml "rusafobiya" adlandırdı və prezident Putin Rusiya vətəndaşlarının "təhlükəsizliyi" üçün rus aviaşirkətlərinin Gürcüstana birbaşa uçuşlarını qadağan edən fərman imzaladı. Etirazçıların aksiya zamanı səsləndirdiyi şuarlar Rusiya vətəndaşlarına qarşı deyil, Rusiya hökümətinin işğalçılıq siyasətini davam etdirməsinə qarşı yönəlmişdi.

Əslində isə, Rusiya Gürcüstana birbaşa uçuşları qadağan etməklə bir neçə məqsəd güdürdü: 1) Gürcüstanın turizmdən əldə etdiyi gəlirlərə zərbə vurmaq və bununla da Gürcüstanı cəzalandırmaq; 2) Rus turistlərini başqa bir istiqamətə – işğal olunmuş Krıma yönləndirmək və bununla da Krımda turizmin inkişafını dəstəkləmək; 3) Gürcüstana hər il səyahət edən milyondan artıq rus turisti Gürcüstandakı qayda-qanun və demokratik dəyişikliklərlə yaxından tanış olmaq imkanına malik olurlar və belə bir sistemin digər post-sovet dövlətlərində də qurula bilməsinin mümkünlüyünü əyani şəkildə görürlər. Bu da, əlbəttə, Rusiya kimi avtoritar rejimli dövlətdə daxili stabilliyin pozulmasına gətirib çıxara bilər.

Gürcüstanın Rusiya ilə münasibətləri 2003-cü ildə eks-prezident Mixail Saakaşvilinin hakimiyyətə gəlişindən sonra və Qərblə inteqrasiyanı sürətləndirməyə çalışdığı dövrdən daha da pisləşdi. 2008-ci il avqust müharibəsindən sonra Kremlin Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıması isə iki ölkə arasında rəsmi münasibətlərə son qoymuş oldu. Hazırda, Rusiya Gürcüstan torpaqlarının 20%-ni işğal altında saxlamaqda davam edir.

Bununla belə, 2012-ci ildə hakimiyyətə gəldiyi vaxtdan etibarən "Gürcü Arzusu" Rusiya ilə münasibətləri və xüsusən də iqtisadi əlaqələrin yenidən bərpa olunması istiqamətində işlər apardı. 2013-cü ildə Moskva gürcü ixrac mallarına (şərab və mineral sular daxil olmaqla) 2006-cı ildən qüvvədə olan embarqonu götürdü. Nəticədə, Gürcüstanın Rusiyaya ixrac etdiyi malların ümumi faiz göstəricisi 2012-ci ildə 2%-dən, 2018-ci ildə 13%-ə qədər yüksələ bildi. Bu da Rusiyanı yenidən Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biri etdi.

Bundan əlavə, Rusiyadan Gürcüstana gələn turistlərin sayında da hər il artım müşahidə olunur. Təkcə 2018-ci ildə Rusiyadan 1 milyon 405 min turist gəlmişdir ki, bu da ölkə iqtisadiyyatına 700 milyon gəlir gətirmişdir. Ümumiyyətlə, 2018-ci ildə Rusiyadan təxminən 1,6 milyard dollar vəsait daxil olmuşdur ki, bu da Gürcüstanın ümumi daxili məhsulunun 10%-ni təşkil edir. Hazırda Rusiyanın Gürcüstana qarşı istifadə etdiyi əsas üsullardan biri iqtisadi təzyiqdir ki, Rusiya bu amildən maksimum yararlanmağa çalışır.

Bundan əlavə, Rusiyanın Gürcüstana təsir mexanizmlərindən biri kimi Gürcüstanda yaşayan etnik azlıqlardan separatist hərəkatların başlanması üçün istifadə etmək üçün kifayət qədər imkanları var. Bu baxımdan Cavaxetiya bölgəsi potensial təhlükədir. 2013-cü ildən başlayaraq Rusiyanın Cavaxetiya bölgəsində Rusiya pasportları paylaması da bu ərazinin gələcək Abxaziya və Cənubi Osetiyaya çevrilməsinə şərait yarada bilər.

Gürcüstanda yaşayan milli azlıqların sayına görə birinci yerdə dayanan azərbaycanlılar arasında da separatist hərəkatların başlanması Rusiya üçün arzu olunandır. Belə bir ssenarinin inkişafı Gürcüstanı tamamilə zəifləDib parçalanma təhlükəsi ilə üz-üzə qoyardı ki, bu da Rusiyanın Gürcüstan üzərində təsirini artırmış olardı. Bölgədə yeganə balanslaşdırılmış və praqmatik siyasət yürüdən Azərbaycan üçün hadisələrin bu istiqamətdə inkişafı yolverilməzdir, baxmayaraq ki, Rusiya Azərbaycanı müxtəlif üsullarla buna təhrik etməyə çalışır. Azərbaycan üçün hazırda Azərbaycan-Gürcüstan strateji ortaqlığı daha önəmlidir ki, hər iki tərəf bundan ancaq fayda əldə edir.

Bu ilin may və iyul aylarında Azərbaycanla Gürcüstan sərhəd xəttində yerləşən Keşikçidağ (David Qareci) məbədində baş verən insidenti də iki ölkə arasında qarşıdurmaya yönəlmiş təxribat hesab etmək olar ki, bu da bölgədə Rusiyanın maraqlarına tamamilə uyğundur. 20 ildən artıqdır ki, Gürcüstan və Azərbaycan arasında bölüşdürülməmiş olaraq qalan bu mübahisəli ərazi bölgədə iki strateji tərəfdaşı qarşı-qarşıya qoymaq üçün istifadə edilməyə çalışılır. Belə ki, Gürcüstanı tamamilə zəiflətmək üçün yeni münaqişə ocağının yaranması Rusiyanın Gürcüstana təsir etmək imkanlarını bir az da artırmış olar.

## NƏTİCƏ

20 iyun Gürcüstanın müasir tarixinə "Qavrilov gecəsi" kimi daxil oldu. Həmin gecə parlament önünə toplaşan minlərlə etirazçıların tələbləri qarşısında hakimiyyət bir sıra mühüm güzəştlərə getməyə məcbur oldu. İqtidarda olduğu müddətdə "Gürcü Arzusu" bir çox səhvlərə yol verdi və 20 iyun tarixində baş verən hadisələri bu səhvlərin kulminasiya nöqtəsi hesab etmək olar ki, bununla da hakim partiya öz imicinə ciddi zərbə vurmuş oldu.

Gözlənilmədən baş verən siyasi böhran bir daha təsdiq etdi ki, Gürcüstanda güclü vətəndaş cəmiyyəti mövcuddur və hakimiyyətdə hansı partiyanın olmasından asılı olmayaraq onlar xalqla hesablaşmalıdırlar. Digər halda bu hakimiyyətdə olan partiya üçün daha ağır nəticələrlə tamamlana bilər.

"Gürcü Arzusu"nun Rusiya ilə münasibətləri normallaşdırmaq siyasətinin iflasa uğraması hakim partiyanı olduqca çətin duruma saldı. Belə ki, Rusiya ilə münasibətlərin yaxşılaşması paralel olaraq Rusiya ilə daha sıx inteqrasiya üçün xalqın dəstəyinin artmasına səbəb olmadı. Həmçinin, Rusiya ilə iqtisadi əlaqələrin artması Abxaziya və Cənubi Osetiya münaqişələrinin həllində də irəliləyişə səbəb olmadı. Son hadisələr göstərdi ki, Rusiya mövcud münaqişələrin həllində maraqlı deyil, əksinə bura yenilərinin də əlavə olunmasını arzu edir. Gürcüstanda baş verən siyasi böhran bölgədə yeni fəlakətlərə yol aça bilər və ümumilikdə Qafqazda sülhün və sabitliyin zəmanətinə təhlükədir.

***Aybəy İSAYEV***
Ekspert



## TARİXLƏ LƏNGİMƏK

Heç kəs tarixi bilməyə məcbur deyil. Bu günü bilmək öhdəliyi isə hər kəsə aiddir. Buna görə də kimsə sabahın məsuliyyətindən boyun qaçıra bilməz.

Nəticə etibarilə keçmişdə heç kəs, bu gün hər kəs, sabah isə kimsəyik. Tarixə baxsaq belə, siz bu gün o tarixlə heç kəs deyilsiniz. Bu günün öhdəliyi ilə isə hər kəssiniz. Bu günün öhdəliyini tarixə xərcləmək sabah sizi yenə heç kəs edəcək. Ona görə də elə bu günün öhdəliyi ilə sabahın məsuliyyətinə hazırlaşmaq lazım və bir o qədər də vacibdir.

Bir az sadələşdirək. Biz niyə tarixdə ilişib qalmışıq?

Heç bir lüğətə, izahata müraciət etmədən hamı tarixin nə üçün öyrənildiyinə subyektiv cavab tapa bilər. Ümumiyyətlə, tarix dərs çıxarmaq üçün əsas mənbə, nümunə olsa da kiçik ölkələrə, bu gün geridən öndəkilərə həsəd apararaq baxanlara görə fərqli formadadır. Tarix təsəlli, təskinlikdir. Zəncirvari yanlışları yalnız tarixi təskinliklə ört-basdır edirik və bu, artıq bizim, yəni türklərin adətimizdir. Tutaq ki, tarixdəki uğurlarımızdan coşğunluqla, emosiyalarımıza uyaraq bəh-bəhlə danışırıq, bəs bu gün niyə bu vəziyyətdəyik? Bəlkə bizə birlik mane olur? Bəlkə individuallığa yüklənərək pərakəndə çalışmalıyıq?

Müşahidələrim bunu deməyimə əsas verir ki, öz işində, ümumiyyətlə, heç bir sahədə peşəkar olmayan adamlar tarixdən ağız dolusu, şirin-şirin danışırlar. Bu gün heç nəyə sahib olmayıb, bir neçə yüz il öncə qılıncın kəskin, nizənin iti, qalxanın bərk, atın at vaxtında savaşmış, hekayələşmiş insanlara sığınaraq ən dar anında belə təsəlli üçün özlərini tarixlə dopinqləyirlər. Ancaq yenə bu dopinqlə də işə əncam çəkilmir ki, çəkilmir.

Bu günlərdə Gürcüstanda "Didqoroba" bayramı keçiriləcək. Bayramı Ağbulaq (Tetricğaro) meriyası təşkil edir. Qısaca xülasə çıxartsaq, Didqori döyüşündə 1121-ci ildə səlcuqlarla savaşan gürcülər qalib gəliblər. Həmin savaşın məzmununa toxunmuram. Sadəcə olaraq bu qələbəni qeyd edənlər məğlubiyyətləri də qeyd edirlərmi? Mən əminəm ki, elə gürcülər də məğlubiyyətdən çox qələbələri yaddaşlarına həkk ediblər. Səbəb isə lap əvvəldən qeyd etdiyim kimi tarixdə ilişib qalmaqdır, təbii ki, nəticəsiz tarixdə.

Bunu ona görə qeyd etdim ki, tarixin səbəb olduğu səriştəsizliyi sizə izah edim. Çox uzağa getməyək, elə götürək Avropanı. Avropa tarixində yüzlərlə müharibə olub, hər ölkənin tarixində şanlı bir səhifə var. Lakin heç biri bu gün digəri ilə tarixlə yarışa girməyir. Çünki bu gün onlar tarix yazmağa çalışırlar və tarix qarşısında da qalibdirlər. Elə Uinston Çörçillin də dediyi kimi, tarixi qaliblər yazır.

***Elməddin MƏMMƏDLİ***

***"Gündəlik – Gürcüstan" facebook səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.***

# DƏMİR QADINLAR

Mən tələbəyəm, eyni zamanda bir qadınam və qəzetdə ilk məqaləmi qadın və cəmiyyət mövzusunda sizlərlə bölüşmək istəyirəm.

Əziz oxucular, qadına qarşı şiddət tək bizim cəmiyyətdə var desəm bu, eynən qatıq ağ deyil qaradır məsələnə oxşayar. Amma desəm ki, bizim cəmiyyətdə "dəmir qadınlar" var, burada artıq qatığın ağlığına məni inandırmayın.

Tələbəyəm və ayda bir-iki dəfə kəndə qayıdıram. Hər gələndə məhəllə qadınları ətrafıma yığılar və məndən tələbəlik həyatının necə bir şey olduğundan söz açmağımı istərlər. Danışıram və hər dəfə sonda onlardan bilirsinizmi hansı cümləni eşidirəm? Bu sualı qadın oxucular çox yaxşı bilər, amma, əziz əks cinsin nümayəndələri, ola bilsin ürəyiniz birazcıq qırılsın .

Belə ki, onlar üçün fantastik, lakin mənim üçün bəzən sabah, günorta və axşam yeməyi "manna-kaşa" olan tələbəlik həyatımı danışanda məni bütün mənlikləri ilə bir şeyə inandırmağa çalışarlar: "Biz ərə gəldik barmağımız balamı batdı, səninki də bata? Gözəl həyatın var, ağlın olsun, ərə getmə. Getsən də şəhərli oğlana get..." Hiss etdinizmi vəziyyətin acınacağlığını? Qadınlar dünyada ən ülvi, ən saf olan sevgi duyğusunu, ümumiyyətlə, qadın xoşbəxtliyini "şəhərli oğlana" ərə getməkdə görürlər.

Gəlin fikirləşək, nəyə görə belə hesab edirlər? Maddiyyata görəmi? Özümüzü aldatmayaq. Hamımız da çox gözəl bilirik ki, səbəb bu deyil. Səbəb bilirsinizmi nədir? Bizim cəmiyyətdə qadın, qaynanaların klassik sözü olmasın, "evin süpürgəsidir". Bu cümləyə diqqət yetirməyinizi xahiş edirəm. Vaxtı ilə bir evin "süpürgəsi olmuş" qadın indi birini qabağında süpürgə edir.

Cəmiyyətimizdə olan qadın elə bilir ki, xoşbəxtlik "şəhərli oğlan"dadır. Nəyə görəmi? Qısaca deyəcəm, bilmirəm nə qədər düzgün başa düşüləcək? Onlar üçün "şəhərli oğlan" qadına dəyər verəndir. Amma bir şey var, burada ola bilsin bəzi qadın oxucularımızın birazcıq ürəkləri qırılsın. Qadına qarşı fiziki, psixoloji şiddət, xoşbəxtlik və bədbəxtlik, dəyərlilik və dəyərsizlik "şəhərli" və "kəndli" ölçü sisteminə baxmır.

Bilirsizmi bir dəfə Marneulidə nə görmüşdüm? Çayxana, amma nə çayxana, gəl görəsən. Yaşıl ağacların bihuş verici kölgəliyi, dovşan qanı rəngində olan ətirli çayı və hər stolda iki-üç nəfər oturmuş gözəl-göyçək müştəriləri. Sanki bir cənnət idi, elə adı da "Kişi Cənnəti" idi. Bəli, kişi cənnəti. Bax, nə hiss yarandı sizdə? Mənim isə hiss etdiyim budur: Kişilərin cənnəti qadın yox da, çayxana olan bir cəmiyyətik biz.



Gözəl ətirli dinimə – İslama baxsaq orada qadına qarşı necə hörmət, izzətin olduğunu görərik. Qadın anadır, uşaq dünyaya gətirmək hüququ yalnız ona verilmişdir. Bu da Rəbbimizin hüzurunda qadının nə qədər dəyərli olduğundan xəbər verir. Axı qadının bir dəfə görməklə, xoşuna gəlməklə əks cins tərəfindən qaçırılması necə yolveriləndir? Hələ ürək yandırıcı da odur ki, qaçırılan günün gecəsi qıza cinsi təcavüz edilir ki, səsini çıxarmasın daha, işin bitmiş olduğunu, geri dönüş olmadığını bir dəfəlik beyninə yerləşdirsin. Biz həm də balaca qızı "balaca qadın" edən cəmiyyətik.

Amma bir tərəfli də baxmaq istəmirəm bu məsələyə. Bir dostumun tez-tez söylədiyi bir cümlə var: "Dünyanı təhsil və sevgi xilas edəcək". 2010-cü ildə etnik azlıqlar üçün yaradılan 1+4 proqramı 3000-dən çox gəncin həyatını dəyişdi, təhsil almaq imkanı verdi. Və bu gün o təhsilli gənclər mübarizə aparırlar adət-ənənə adı yapışdırılmış streotiplərlə. Bu gənclər bilirlər, qadına dəyər verilən cəmiyyətdə inkişaf olar. Mən qürur duyuram ki, Gürcüstanda sayımız 500 mindən çox olan bizlərin içindən 3000 tələbənin valideyni təhsilin nə qədər önəmli olduğunu bilir və əminəm ki, bu rəqəm daha da böyüyəcək. Çünki "dünyanı təhsil və sevgi xilas edəcək" və "dəmir qadın" dəmirlikdən, qatıq isə qaralığından azad olacaq.

***Gülgün Məmmədxanova***

## DÖVLƏT MÜVƏKKİLİ ADMİNİSTRASİYALARI EZAMİYYƏTLƏRƏ NƏ QƏDƏR PUL XƏRCLƏYİB?



Dövlət büdcəsinin hesabatına əsasən, 2019-cu ilin birinci yarısında dövlət müvəkkili administrasiyalarında ezamiyyətə ümumilikdə 28 649 lari xərclənib. Dövlət Auditinin büdcə monitorunun göstəricilərinə əsasən, bələdiyyələr arasında ən çox ezamiyyət xərci Kaxeti rayon administrasiyasında olub. Administrasiya Axmeta, Qurcaani, Dedoplistsğaro, Tercola, Laqodexi, Saqareco, Siqnaxi və Kvareli bələdiyyələrində cari ilin 6 ayı ərzində ezamiyyətlərə 6255 lari xərcləyib. Ən az büdcəli ezamiyyətlər isə Mtsxeta-Mtianeti regionunda olub. Sənədə əsasən, Dövlət Müvəkkili-Qubernator Administrasiyası Duşeti, Tianeti, Mtsxe-ta və Kazbeki bələdiyyələrində cəmi 207 lari xərcləyib.

Digər regionlarda ezamiyyət xərcləri isə belədir:

Dövlət Müvəkkili-Qubernator Administrasiyası Abaşa, Zuqdidi, Martvili, Mestiya, Senaki, Çxorotsku, Tsalencixa, Xobi bələdiyyələri və Poti şəhər bələdiyyəsində 1666 lari; Lançxuti, Ozurgeti və Çoxatauri bələdiyyələrində 3409 lari; Bağdati, Vani, Zestafoni, Tercola, Samtrediya, Saçxere, Tkibuli, Cğaltubo, Çiatura, Xaraqauli, Xoni bələdiyyələrində və Kutaisi şəhər bələdiyyəsində 5009 lari; Ambrolauri, Lentexi, Oni və Tsaqeri bələdiyyələrində 1885 lari; Adigeni, Aspindza, Axaltsixe, Axalkalaki, Borjomi və Ninotsminda bələdiyyələrində 1335 lari; Bolnisi, Qardabani, Dmanisi, Tetricğaro, Marneuli, Tsalka bələdiyyələrində və Rustavidə 6137 lari; Qori, Kaspi, Kareli və Xaşuridə isə 2746 lari məbləğ xərclənib.

## MARNEULİNİN DAĞLIQ MƏNTƏQƏLƏRİNDƏ YOL İNFRASTRUKURU QURULACAQ



Marneuli bələdiyyəsinin dağlıq məntəqələrində – Opreti və Xocorni ərazi vahidliyində yol infrastrukturunun qurulması məqsədi ilə bərpa işləri aparılır.

Opreti kəndində artıq 1075 metr yola asfalt qatının çəkilməsi işləri başa çatıb. Bunun üçün yerli büdcədən 293 487 lari ayrılıb. Opretinin daxili yollarına asfalt qatının çəkilməsi üçün ilkin mərhələdə hazırlıq işləri aparılır. Layihə çərçivəsində 1367 metr yola asfalt qatının çəkilməsi planlaşdırılır. Bunun üçün büdcədə 405 513 lari nəzərdə tutulub.

Marneuli meri Zaur Darğallı qeyd olunan kəndlərdə infrastruktur layihələrinin gedişatını nəzərdən keçirib. O, aparılan işlərlə yerində tanış olub, əhali ilə görüşüb və il ərzində planlaşdırılan, həyata keçirilən layihələr haqqında onlara ətraflı məlumat verib.

## QARDABANİ MERİ RAMAZ BUDAĞAŞVİLİ BƏLƏDİYYƏDƏ HƏYATA KEÇİRİLƏN İNFRASTRUKTUR LAYİHƏLƏRİ İLƏ TANIŞ OLUB



Qardabani bələdiyyəsinin icra başçısı Ramaz Budağaşvili yerli özünüidarəetmə nümayəndələri ilə birgə Qardabani şəhərində həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olub.

Monitorinq çərçivəsində mer Qardabani şəhərində təcili tibbi yardım mərkəzinin tikintisi və Levan Devdariani adına 1 saylı ictimai məktəbin idman zalının bərpası prosesini nəzərdən keçirib.

R.Budağaşvilinin bildirdiyinə görə, "bələdiyyə miqyasında infrastruktur işləri davamlı şəkildə həyata keçirilir, həmçinin gündəlik rejimdə tikinti prosesinin monitorinqi aparılır ki, bu da tikintinin keyfiyyətinə təsir göstərir".

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ KƏND TƏSƏRRÜFATI NAZİRİNİN MÜAVİNİ QARDANBANİDƏ OLUB



Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin müavini Solomon Pavliaşvili, Gürcüstan parlamentinin sədr müavini İlia Nakaşidze, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və qanunverici, icra və yerli hakimiyyətin nümayəndələri Qardabani bələdiyyəsinin sakinləri ilə görüşüblər. Bu haqda Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyindən bildiriblər.

Məlumata görə, Martğopi, Saakadze və Sarticala kəndlərində baş tutan görüşdə əhali dövlətin dəstəklədiyi proqramlarla bağlı ətraflı məlumat alıb və nümayəndələr yerli sakinlərin problemləri ilə tanış olublar.

Görüşdə kəndlərdə infrastruktur layihələri, avtomobil yollarının qurulması, ambulatoriyaların, təcili tibbi yardım mərkəzlərinin, tədris müəssisələrinin tikintisi-bərpası və kəndə dəstək proqramı çərçivəsində həyata keçiriləcək tədbirləri nəzərdə tutan cari və planlaşdırılan geniş miqyaslı işlərdən söhbət açılıb.

Solomon Pavliaşvili kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi istiqamətində olan yeniliklərlə əhalini tanış edib. Nazir müavini dövlət proqramlarına fəal qoşulmanın əhəmiyyətini vurğulayıb və uğurlu hadisələrdən söhbət açıb.

Görüşdə hökumətin yeni təşəbbüsündən də söhbət açılıb. Təşəbbüsə əsasən, pensiya yaşında olanlar, sosial müdafiəsiz vətəndaşlar və fiziki məhdudiyyətli olanlar, xroniki xəstəliklərdən müalicə alan şəxslər 35 adda dərman preparatını 1 lariyə ala biləcəklər.

Qeyd edilməlidir ki, mərkəzi və yerli hakimiyyətin birgə gücü ilə cari ildə Kvemo Kartli regionunda 783 layihə həyata keçirilib. Layihələrin ümumi dəyəri 245 117 658 laridir. Həmçinin Qardabani bələdiyyəsində 50 959 216 lari dyərində 110 layihənin həyata keçirilməsi planlaşdırılıb.

## MARNEULİDƏ DOLUDAN ZİYAN GÖRƏN 400-Ə YAXIN EVİN DAM ÖRTÜYÜ YENİLƏNƏCƏK



Hökumət Marneuli rayonunun təbii fəlakətdən ziyan görən kəndlərinə yardım edib. Doludan ziyan görən 400-ə yaxın ailə üçün metal dam örtükləri alınıb. Bunun üçün mərkəzi büdcədən 660 min lari vəsait ayrılıb.

Kvemo Kartli bölgəsinin qubernator müavini Zviad Çunaşvili, Marneuli rayonunun icra başçısı Zaur Darğallı, onun müavinləri Zaur Tabatadze və Laşa Lobcanidze, Marneuli sakrebulosunun sədr müavini Mamuka Naveriani Tsitelsopeli kəndində təbii fəlakətin yaratdığı fəsadların aradan qaldırılması istiqamətində görülən işlərlə yerində tanış olublar.

Qeyd edək ki, ötən ay güclü dolu Marneuli rayonunun beş kəndinə ciddi ziyan vurub. Təbiət hadisəsi zamanı ən çox yaşayış evlərinin dam örtükləri yararsız hala düşüb.

## KİROVKA VƏ AŞAĞI SARAL KƏNDLƏRİNDƏ DAXİLİ YOLLARIN BƏRPASI İŞLƏRİ HƏYATA KEÇİRİLİR



Marneuli bələdiyyəsinin Kirovka və Aşağı Saral kəndlərində daxili yolların bərpası işləri həyata keçirilir. Marneuli bələdiyyəsinin icra başçısı Zaur Darğallı kəndlərə baş çəkib. O, yolların çəkilməsi prosesi ilə yaxından tanış olub və yerli sakinlərlə söhbət edib.

Layihə çərçivəsində Kirovka kəndində 1340 metr uzunluqda yola asflat qatı çəkilir. Bunun üçün yerli büdcədən 436 000 lari ayrılıb. Aşağı Saral kəndində isə 940 metr uzunluqda yola asfalt qatı çəkilir. İşlər üçün regionda həyata keçirilən layihələr fondundan 468 140 lari vəsait ayrılıb.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 AVQUST 2019-CU İL/ №015 (95)

Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET იენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTANDAN MEYVƏNİN İXRACI 22,5%, TƏRƏVƏZİN İXRACI İSƏ 2,4% AZALIB



Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına əsasən, 2019-cu ilin yanvar-iyun aylarında meyvə və paxlalıların ixracından əldə olunan gəlir 29,2 milyon dollar təşkil edib. Qeyd olunan qrupda əsas yeri tuturlar: fındıq - 13,2 milyon dollar, alma - 4,2 milyon dollar, banan - 3,5 milyon dollar, mandarin - 2 milyon dollar, badam - 1,3 milyon dollar.

Həmin göstəricilərə görə, 2019-cu ilin yanvar-iyununda ötən ilin analoji dövrü ilə müqayisədə Gürcüstandan meyvə və paxlalıların ixracı 22,5% azalıb.

2018-ci ilin yanvar-iyun aylarında meyvə və paxlalıların ixracından əldə olunan gəlir 37,7 milyon dollar təşkil edib. Qrupda lider mövqedə bunlar olub: fındıq - 28,2 milyon dollar, badam - 3,3 milyon dollar, mandarin - 1,5 milyon dollar, şaftalı - 1,1 milyon dollar, banan - 1 milyon dollar.

Tərəvəzlərin ixracında isə 2019-cu ilin yanvar-iyun aylarında əldə olunan gəlir 8,1 milyon dollar təşkil edib. Tərəvəzlər qrupunda pomidor - 1,6 milyon dollar, kartof - 0,8 milyon dollar, göbələk - 0,8 milyon dollar, xiyar - 0,7 milyon dollar olmaqla aparıcı yer tuturlar.

Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin yanvar-iyun aylarında ötən ilin analoji dövrü ilə müqayisədə tərəvəzlərin ixracı 2,4% azalıb.

2018-ci ilin yanvar-iyununda tərəvəzlərin ixracından əldə olunan gəlir isə 8,3 milyon dollar təşkil edib. Qrupda pomidor - 3,7 milyon dollar və kartof - 0,4 milyon dollarla aparıcı yer tutub.

## 6 AY ƏRZİNDƏ 40,7 MİLYON LARİ - BÜDCƏ TƏŞKİLATLARI EZAMİYYƏTLƏRDƏ NƏ QƏDƏR PUL XƏRCLƏYİBLƏR?



2019-cu ilin dövlət büdcəsinin icrası hesabatına əsasən, büdcə təşkilatları ilin birinci yarısında ezamiyyətlərə 40,7 milyon lari xərcləyiblər. Dövlət Audit Xidmətinin məlumatına görə, bu məbləğ ötən ilin analoji göstəriciləri ilə müqayisədə 3,4 milyon lari çoxdur. 2018-ci ilin 6 ayında ezamiyyətlərə 37,3 milyon lari, bütün il ərzində isə 78,2 milyon lari xərclənib.

Konkret olaraq, 2019-cu ilin 6 ayı ərzində parlament və onunla əlaqəli təşkilatlarda çalışanlar ezamiyyətlərə 1,4 milyon lari xərcləyib. Prezident Administrasiyası isə 6 ay ərzində ezamiyyətlərə 853 365 lari xərcləyib.

Hesabat dövründə dövlət administrasiyası ezamiyyətlərə 2,3 milyon lari sərf edib, bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 1,4 milyon lari çoxdur.

Başqa müəssisələrin göstəriciləri isə belədir:

Maliyyə Nazirliyinin ezamiyyət xərcləri 982 928 lari, İqtisadiyyat Nazirliyi – 1,1 milyon lari, Ədliyyə Nazirliyi – 392 min lari, Səhiyyə Nazirliyi – 1,1 milyon lari, Xarici İşlər Nazirliyi – 1,4 milyon lari, Müdafiə Nazirliyi – 21,3 milyon lari, Daxili İşlər Nazirliyi – 2,6 milyon lari, Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi – 1,8 milyon lari, Təhsil Nazirliyi – 2,9 milyon lari.

Bundan əlavə, 2019-cu ilin 6 ayı ərzində Audit Xidməti ezamiyyətlərə 69 376 lari, Mərkəzi Seçki Komissiyası – 114 643 lari, Konstitusiya Məhkəməsi – 34 713 lari vəsait xərcləyib.

## YOL İNFRASTRUKTURUNA XƏRCLƏNƏN VƏSAİT 36,4% ARTIB

Bu ilin I yarısında Gürcüstanda yol infrastrukturunun yaxşılaşdırılmasına 397,838 milyon lari vəsait xərclənib. Bu barədə Gürcüstanın Avtomobil Yolları Departamentinin 6 aylıq hesabatında bildirilir.

Sənədə əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 36,4% çoxdur.

Yanvar-iyunda Gürcüstanda 200 kilometrə yaxın yol bərpa olunub, 10 körpüdə isə təmir-bərpa işləri aparılıb. Bu ilin sonuna qədər ölkədə 550 kilometr yolun bərpa olunması nəzərdə tutulub.

## DÖVLƏT QURUMLARININ XİDMƏTİ AVTOMOBİLLƏRİNDƏN İSTİFADƏYƏ GÖRƏ VERGİ ÖDƏNƏCƏK

Vergi Məcəlləsinə daxil edilən dəyişikliklərə əsasən, dövlət qurumlarının xidməti avtomobillərindən istifadə edənlər vergi ödəməli olacaqlar. Qanun 2019-cu ilin 1 sentyabrından qüvvəyə minəcək. Yeni qaydaya əsasən, işlə təmin olunan şəxs tərəfindən işlə təmin edən şəxsin avtomobilindən fərdi istifadə etməsi əmək haqqı hesab olunacaq və sonrakı qaydada vergi ödənəcək (məbləğin həcmi avtomobilin mühərrikinin həcmindən asılı olacaq):

Mühərrikin həcmi 3500 kub santimetrdən çox olduqda – ayda 300 lari.

Mühərrikin həcmi 2500-3500 kub santimetr olduqda – ayda 200 lari.

Mühərrikin həcmi 2500 kub santimetrdən az olduqda – ayda 100 lari.

Hibrid avtomobillər üçün – ayda 60 lari.

Yeni qayda elektromobillərə aid deyil. Qanuna əsasən, işlə təmin edilən tərəfindən işlə təmin edənin elektromobilindən fərdi işi üçün isitifadəsinə görə vergi ödənməyəcək.

## DÖVLƏT STRUKTURLARINDA RÜŞVƏT GÖTÜRMƏ FAKTLARI 42,86% ARTIB



Daxili İşlər Nazirliyinin məlumatına əsasən, 2019-cu ilin yanvar-iyun aylarında dövlət strukturlarında rüşvət götürmə faktları ötən ilin analoji dövrü ilə müqayisədə 42,86% artıb.

Məlumata görə, cari ildə bu cinayətlə bağlı 40, 2018-ci ilin yanvar-iyun aylarında isə 28 fakt qeydə alınıb.

Ümumiyyətlə, bu ilin ilk altı ayında cinayət statistikası ötən ilin eyni dövrü ilə müqayisədə 15.84% azalmışdır. Cari ilin hesabat dövründə rəsmi cinayət sayı 287 fakt qeydə alınıb, 2018-ci ilin analoji dövründə bu göstərici 341 olub.

Belə ki, müəssisənin məlumatına görə, 2019-cu ilin yanvar-iyun aylarında rəsmi cinayət olaraq qeydiyyatdan keçmiş faktlardan ən çoxu – 149 hal vəzifəsindən sui istifadə etməyə aiddir. Bundan əlavə, 2019-cu ilin yanvar-iyun aylarında 40 rüşvət götürmə, 42 vəzifəsindən sui istifadə, 33 vəzifəsinə biganə yanaşmaq, 17 vəzifə saxtakarlığı və 6 rüşvət vermə halı qeydə alınıb.

## KOMMERSİYA BANKLARI 6 AY ƏRZİNDƏ ƏHALİNİN CƏRİMƏLƏNMƏSİNDƏN 48 MİLYON LARİDƏN ÇOX MƏBLƏĞ ƏLDƏ EDİBLƏR

Kommersiya bankları 2019-cu ilin iki rübündə müştərilərə edilən cərimələrdən və kreditlərin cərimələrindən 48 214 838 lari gəlir əldə ediblər.

Hesabata görə, cərimələrdən ən çox gəlir – 13 749 470 lari "TBC Bank" əldə edib. Beşlikdə "Gürcüstan Bankı", "Kartu Bank", "Liberti Bank" və "Kredo Bank" yer alır:

- "TBC Bank" – 13 749 470 lari.
- "Gürcüstan Bankı" – 8 680 037 lari.
- "Kartu Bank" – 8 353 302 lari.
- "Liberti Bank" – 5 034 384 lari.
- "Kredo Bank" – 4 959 475 lari.

Başqa banklardan isə "Basisbank" cərimələrdən 2 081 236 lari, "Finka Bank" – 1 819 709 lari, "Halyk Bank" 920 314 lari, "Terabank" – 1 730 142 lari, "Paşa Bank" – 345 459 lari, "ProCredit Bank" – 478 766 lari, "Ziraat Bank" isə 62 544 lari əldə edib.

Qeyd edilməlidir ki, "Silk Road Bank", "İşbank" və "VTB Bank"ın cərimələrdən əldə etdiyi məbləğ yoxdur.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.